**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**İBRAHİMPUR ƏSƏDULLAH RAMEZAN**

# AZƏRBAYCAN RESPUBLİKASI VƏ İRAN İSLAM RESPUBLIKASI ARASINDA İQTİSADİ ƏLAQƏLƏRİN FORMALAŞMASI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

İxtisas: 5310.01 - "Dünya iqtisadiyyatı"

iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**БАКУ 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Amil Məmmədəli oğlu Məhərrəmov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Səfər Həsən oğlu Pürhani**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Müzəffər Qulu oğlu Məmmədov**

**Aparıcı təşkilat:** ***Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu***

Müdafiə "28" mart 2018-ci il tarixində saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində fəaliyyət göstərən D.02.051 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "26" fevral 2018-ci ildə göndərilmişdir.

**D.02.051 Dissertasiya**
**şurasının elmi katibi,**
**iqtisad üzrə fəlsəfə doktoru, dos. M.M.Sadıqov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan-İran iqtisadi əlaqələrinin tədqiqi həm elmi, həm də siyasi-iqtisadi baxımdan aktualdır. Azərbaycanın müstəqillik dövründə xarici iqtisadi fəaliyyətində İranın xüsusi yeri olmuşdur. Azərbaycan-İran iqtisadi əlaqələri hər zaman strateji səciyyə daşımışdır. Bunu isə şərtləndirən bir neçə amillər vardır. Ən başlıcası, Azərbaycan və İran xalqları uzun bir dövr ərzində vahid tarixə malik olmuşlar. Onların bir neçə təsərrüfat sahələri birgə əsasən sərhəd yanı ərazi daxilində qarşılıqlı olaraq bir-birinə bağlı şəkildə inkişaf etmişdir. Müasir dövrdə Azərbaycan üçün İranla iqtisadi münasibətlərin genişləndirilməsi onun müstəqilliyinin möhkəmlənməsinə müsbət təsir edən amil kimi qiymətləndirilə bilər. İran üçün Azərbaycan yeni iqtisadi tərəfdaş və ona çox vacib olan şimal bazarına çıxışda mühüm tranzit yoldur. Eyni zamanda mürəkkəb beynəlxalq siyasi proseslərdə Azərbaycanla inkişaf edən iqtisadi əlaqələr İranın təhlükəsizliyi üçün zəmanətlərdən biridir. İkitərəfli əhəmiyyətlə yanaşı Azərbaycan-İran iqtisadi əlaqələri regional inteqrasiya və təhlükəsizlik üçün də mühüm şərtdir. Ümummilli Lider Heydər Əliyev İranla dostluq və əməkdaşlığı Azərbaycanın və regionun təhlükəsizliyi və sabitliyi üçün mühüm amil hesab edirdi. İranın keçmiş prezidentləri M.Hatəminin və M. Əhmədinecadın da Azərbaycan-İran iqtisadi, siyasi və mədəni münasibətlərin dərinləşməsində mühüm rolları olmuşdur. Son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan-İran iqtisadi əlaqələrinin dərinləşməsinə mühüm töhvələr verirlər. Hər iki dövlət başçısı qarşılıqlı əlaqələrin bütün sahələrinin, xüsusən, iqtisadi sahənin inkişaf etdirilməsində ciddi səylər göstərirlər. Lakin nəzərə almaq lazımdır ki, İran-Azərbaycan iqtisadi əlaqələrinin inkişafı üçün hələ geniş potensial vardır.

Bu nöqteyi nəzərdən, İran-Azərbaycan iqtisadi əlaqələrinin qlobal iqtisadi və siyasi şəraitin nəzərə alınması şərti ilə araşdırılması mühüm elmi və praktiki əhəmiyyətə malikdir. Belə tədqiqat hər iki ölkədə müqayisəli üstünlük sahələrinin üzə çıxarılmasına, hər iki ölkə üçün ixrac potensialının düzgün qiymətləndirilməsinə və ölkələrarası iqtisadi əlaqələrin genişlənməsinə imkan verə bilər.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** İranla münasibətlərin öyrənilməsinə Azərbaycan ictimai və iqtisadi elmlərində böyük önəm verilir. Bu, İranın tarixini, həmçinin İranda gedən müasir iqtisadi-siyasi prosesləri əhatə etməkdədir. Azərbaycanın müstəqillik qazanması ilə İranla birbaşa əlaqələrin yaranması Azərbaycan tədqiqatçılarında bu əlaqələri öyrənmək ehtiyacı doğurdu. Məsələlərin daha dərindən öyrənilməsi məqsədi ilə ilk öncə ölkələrarası iqtisadi münasibətlər, hər iki dövlətin xarici iqtisadi fəaliyyəti nəzəri problem kimi araşdırılmışdır. Bu sahədə klassik və müasir tədqiqatçıların əsərlərinə müraciət edilmiş, onların nəzəri-konseptual görüşləri nəzərdən keçirilmişdir.



İran-Azərbaycan iqtisadi əlaqələrinin mahiyyəti və perspektivləri İranla bağlı konseptual siyasətin banisi, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" silsilə kitablarında geniş şərh edilib.

Beynəlxalq ticarət nəzəriyyələrinin inkişafına A.Smit, D.Rikardo, O.Hekşer, B.Olen, V.Leontyev, P.Samuelson, P.Kruqman, R.Vernon, B.Balassa və s. alimlərin əsərləri böyük töhvə vermişdir. MDB məkanı alimlərindən isə bu sahədə N.Artyomov, V.Andreanov, A.Arxipov, S.Batçikov, İ.İvanov, İ.Korolyov, U.Kirikari, N.Fedorenko və s. misal göstərmək olar. Xüsusilə İranla Azərbaycan arasındakı münasibətlər A.Sabbatovskayanın əsərlərində öz əksini tapmışdır.

İran-Azərbaycan iqtisadi əlaqələri həm Azərbaycan, həm də İran tədqiqatçılarının diqqət mərkəzindədir. Bu problem hər iki ölkənin hökumət sənədlərində, qanunvericilik aktlarında və müxtəlif rəsmi sənədlərdə öz əksini tapıb. S.Əliyevin Moskvada nəşr edilmiş "XX əsr İran tarixinə dair" monoqrafiyası İran-Azərbaycan iqtisadi əlaqələrinə aid maraqlı tədqiqat əsəridir. İranlı alim Taghi Davoodi tərəfindən bu  sahədə təhlillər aparmışdır.

Azərbaycan iqtisadiyyatının inkişaf xüsusiyyətləri, onun sahə quruluşu və xarici iqtisadi əlaqələrini əks etdirən araşdırmalardan Ç.Abbasovun, A.Nadirovun, A.Ələsgərovun, T.Hüseynovun tədqiqatları diqqəti cəlb edir. R.Cəbiyev, C.Kərimov, N.Nəcəfov, A.Orucov, H.İsrafilov Azərbaycan-İran iqtisadi əlaqələrinə həsr edilən maraqlı tədqiqatlar aparmışlar. Ə. Həsənov, M. Qasımov, N.Nəsibov, M.Abdullayev isə Azərbaycan-İran iqtisadi əlaqələrində siyasi aspektlərin rolunu öyrənmişlər.

Lakin bu tədqiqatlarda Azərbaycanla İran arasındakı xarici iqtisadi əlaqələrin təkmilləşdirilməsi və onların inkişaf perspektivlərinin təhlili vəzifə kimi birbaşa olaraq qarşıya qoyulmamış, eləcə də bu tədqiqatlardan irəli gələn nəticə və təkliflərin müasir şəraitdə ikitərəfli xarici ticarət əlaqələrinin yeni inkişaf tendensiyalarını nəzərə almaqla dəqiqləşdirilməsi və inkişaf etdirilməsi tələb olunur.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini Azərbaycan Respublikası və İran İslam Respublikası araslnda iqtisadi əlaqələr və onların perspektivləri təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti Azərbaycan Respublikası və İran İslam Respublikası arasında gələcək iqtisadi əlaqələrin problemləri və həlli yollarıdır.

**Tədqiqat məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan-İran iqtisadi əlaqələrin nəzəri və praktiki aspektlərinin tədqiqi əsasında iki ölkə arasında iqtisadi əlaqələrin gələcək inkişafı üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tovsiyələrin işlənib-hazırlanmasından ibarətdir.

Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Ölkələrarası  iqtisadi əlaqələrin nəzəri-konseptual əsaslarının təhlili;

• Azərbaycan və İran iqtisadiyyatlarının müasir vəziyyətinin qiymətləndirilməsi;

• Azərbaycan-İran iqtisadi əlaqələrinin qiymətləndirilməsi;

• Azərbaycan və İranın ixrac potensiallarının qiymətləndirilməsi;

• İki ölkə arasında perspektiv iqtisadi əlaqələrdə oxşar elementlərin müəyyən edilməsi;

• Azərbaycan - İran iqtisadi əlaqələrində müqayisəli üstünlüyə malik olan sahələrin müəyyən edilməsi;

• İki ölkə arasında iqtisadi əməkdaşlığının perspektiv istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**. Dissertasiya işinin nəzəri-metodoloji əsaslarını iqtisad elminin inkişafı və beynəlxalq iqtisadi əlaqələrlə bağlı mövcud nəzəriyyələr, beynəlxalq sazişlər, müvafiq normativ-hüquqi aktlar, iqtisadçı alimlərin problemlə bağlı tədqiqatları təşkil etmişdir. Tədqiqat prosesində qoyulan məqsəd və vəzifələrin reallaşdırılmasına nail olmaq üçün sistemli təhlil, statistik qiymətləndirmələr, müqayisəli təhlil, səbəb-nəticə təhlili, korelyasiya-reqressiya təhlili, ekstrapolyasiya, proqnozlaşdırma və digər tədqiqat metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazası kimi İran İslam Respublikası və Azərbaycan Respublikasının rəsmi dövlət qurumlarının məlumatlarından, o cümlədən, Azərbaycan Dövlət Statistika Komitəsinin və Dövlət Gömrük Komitəsinin məlumatlarından, İranın Statistika Mərkəzinin məlumatlarından, beynəlxalq institutların və təşkilatların, o cümlədən Dünya Bankının məlumatlarından geniş istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın əsas elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- İran İslam Respublikası və Azərbaycan Respublikası arasında beynəlxalq əməkdaşlıq sistemində bütün istiqamətlərdə mövcud əlaqələrin xronologiyası, sistemli və kompleks şəkildə təhlil olunmuşdur. İki ölkə arasında gələcək iqtisadi münasibətlərin inkişafına təsir edən amillər müəyyən olunmuşdur;
- Hər iki ölkənin, Yaxın Şərq regionunun digər aparıcı ölkələri ilə investisiya fəaliyyətlərinin müqayisəli təhlili aparılmış və əsas meyarları müəyyən olunmuşdur;
- İran İslam Respublikası və Azərbaycan Respublikasının makroiqtisadi vəziyyətləri qiymətləndirilərək sabit iqtisadi artımı dəstəkləyən əsas amillər müyyən olunmuşdur;
- Dünya iqtisadiyyatı sistemində Qlobal Əlavə Dəyər Zəncirinə (GVC) daxil olunması istiqamətində hər iki ölkənin Cənub-Şimal və Qərb-Şərq nəqliyyat dəhlizlərinə qoşulmasının məqsədə uyğunluğu əsaslandırılmışdır;
- Azərbaycanın qeyri-neft iqtisadiyyatın inkişaf etməsi və İran İslam



Respublikasına sanksiyaların aradan qaldırılması şəraitində hər iki ölkənin milli iqtisadiyyatları arasında sahələrarası əlaqələrin gücləndirilməsi məsələləri təhlil olunmuşdur;
- Hər iki ölkənin milli iqtisadiyyatılarının 2025-ci ilə qədər proqnoz təhlili aparılmış, oxşar meyarlar və problemlər aşkar olunmuşdur. Müəyyən olunmuşdur ki, əslində hər iki ölkə iqtisadi struktur baxımından yaxın olan ölkələrdir;
- Proqnoz göstəriciləri əsasında hər iki ölkənin xarici iqtisadi əlaqələrində mənfi tendensiyaları aşkar edərək, ölkələr arasında idxal-ixrac əlaqələrinin genişləndirilməsi və ixtisaslaşmanın dərinləşdirilməsi istiqamətində konkret təkliflər verilmişdir. Müəyyən olunmuşdur ki, iki ölkə arasında sahədaxili ticarəti gücləndirərək milli iqtisadiyyatların inkişafında daha böyük nəticələrə nail oluna bilər.
- İqtisadi-riyazi modelin əsasında Azərbaycan və İran arasında gələcək iqtisadi əlaqələrin dərinləşməsinin zəruriliyi əsaslandırılmışdır.

**Tədqiqat işinin nəzəri və təcrübi əhəmiyyəti**. Tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, İran-Azərbaycan iqtisadi əlaqələrinin elmi tədqiqat obyekti olaraq öyrənilməsi, onların formalaşması və inkişafı istiqamətində irəli sürülmüş təkliflər digər ölkələrlə iqtisadi əlaqələrin öyrənilməsi üçün əsas təşkil edə bilər. Əldə edilən nəticə və təkliflər iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı və təkmilləşdirilməsi istiqamətində müvafiq dövlət qurumları tərəfindən, həmçinin elmi-tədqiqat işlərində, ali təhsil müəssisələrində tədris prosesində istifadə edilə bilər.

**Tədqiqat işinin çap edilməsi və aprobasiyası.** Tədqiqat nəticəsində dissertasiya işi üzrə ümumi həcmi 8 çap vərəqi olmaqla 10 adda məqalə və tezis çap olunmuşdur. Tədqiqatın nəticələri "Ölkə iqtisadiyyatının innovasiyalı inkişafının strategiyaları: problemlər, perspektivlər, səmərəlilik" mövzusunda beynəlxalq elmi-praktiki kofransda (Kiyev, 2018-ci il) edilmiş məruzədə öz əksinin tapməşdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiyanın strukturu mövzunun açılmasına xidmət etməlidir. Bu prinsip əsas götürülərək dissertasiyanın strukturu giriş, 3 fəsil, nəticə və təkliflərdən, həmçinin istifadə olunmuş ədəbiyyat siyahısından təşkil olunmuşdur. Dissertasiyada 12 cədvəl, 6 şəkil-qrafik, 19 düsturdan ibarət ekonometrik model təqdim olunmuşdur.

## DİSSERTASİYA İŞİNİN PLANI

**Giriş**

**I fəsil. Azərbaycan Respublikasının və İran İslam Respublikasının beynəlxalq iqtisadi münasibətlər sistemində iştirakının elmi-nəzəri əsasları**

1.1. Beynəlxalq iqtisadi münasibətlər sisteminin elmi-nəzəri əsaslari və geoiqtisadi amillərin əhəmiyyəti

1.2. Azərbaycanın milli iqtisadiyyatının inkişaf xüsusiyyətləri və dünya təsərrüfatı sistemində iştirakın xüsusiyyətləri
1.3. İranın sosial-iqtisadi inkişaf məsələləri və qlobal iqtisadiyyatda yeri və rolu
**II fəsil. Azərbaycan Respublikasnın İran İslam Respublikası ilə iqtisadi əlaqələrinin xarakterik xüsusiyyətləri və inkişaf meylləri**
2.1. Azərbaycan-İran iqtisadi əlaqələrinin mövcud vəziyyəti, strukturu və dinamikası.
2.2. Azərbaycan-İran iqtisadi əməkdaşlığının əsas istiqamətləri
2.3. Azərbaycan və İran arasında investisiya əməkdaşlığı və xarici ticarət əlaqələrində multiplikator effekti
**III fəsil. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi əlaqələrin inkişaf perspektivləri və onun təkmlləşdirilməsi istiqamətləri.**
3.1. Azərbaycan-İran qarşılıqlı iqtisadi münasibətlərinin inkişafı
3.2. Azərbaycan-İran iqtisadi münasibətlərinin təkmilləşdirilməsi problemləri, gələcək iqtisadi əlaqələrin prognozu və modelləşdirilməsi
3.3. Azərbaycanın İran ilə sahələr üzrə iqtisadi əməkdaşlığının perspektiv istiqamətləri
**Nəticə**
**İstifadə olunmuş ədəbiyyat**

## DİSSERTASİYANIN QISA MƏZMUNU

### 1. Azərbaycan Respublikasının və İran İslam Respublikasının beynəlxalq iqtisadi münasibətlər sistemində iştirakı və geoiqtisadi amillərin əhəmiyyəti

Beynəlxalq iqtisadi münasibətlərdə geoiqtisadi amillərin əhəmiyyəti geosiyasi proseslərin beynəlxalq siyasi əlaqələrdə olan əhəmiyyəti kimidir. Geosiyasi amillər dövlətlərin xarici siyasi fəaliyyəti ilə bağlıdırsa geoiqtisadi amillər onların iqtisadiyyatları ilə əlaqəlidir. Geoiqtisadi amillərin iqtisadiyyatla bağlılığı məhdudlaşmayaraq geosiyasi amillərlə qarşılıqlı təsir münasibətlərinə girir. Yəni geosiyasi amillər və geoiqtisadi amillərin bir-birini qarşılıqlı şəkildə tamamlayırlar. Misal olaraq onu göstərmək olar ki, ABŞ alimləri tərəfindən geosiyasi və geoiqtisadi amillər əsas götürülərək İran körfəsi və Xəzər hövzəsi "Vahid enerji ellepsinə" daxil edilmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, İran İslam Respublikası da geosiyasi və geoiqtisadi fəal ölkədir. Doğrudur onun geoiqtisadi proseslərdə iştirakı və vəziyyətində Azərbaycan Respublikası ilə müəyyən fərqlilikləri vardır. Bu fərqliliklərin kökündə ABŞ-la 1979-cu ildən başlayan ziddiyyətlərin olması durur. Belə demək olar ki, dövlətlərin müasir geoiqtisadi doktrinaları ondan ibarətdir ki, ümumdünya



gəlirinin bölüşdürülməsində sərfəli iştirak üçün bütün geoiqtisadi amillərdən və geomaliyyə və texnologiya imkanlarından istifadə edilsin.

Müstəqillik illəri ərzində aparılan islahatlar və görülən tədbirlər nəticəsində Azərbaycan iqtisadiyyatı yüksək dinamika və pozitiv dəyişikliklərlə xarakterizə olunur. 2000-2015-ci illəri əhatə edən dövr ərzində Azərbaycanda ÜDM 4,5 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı məhsullarının istehsalı 1,3, tikinti sektorunun həcmi 3,2, nəqliyyat xidmətləri 2,3, rabitə və informasiya xidmətləri isə 6,4 dəfə artmışdır. Eyni dövrdə əhalinin hər nəfərinə düşən ÜDM 3,8 dəfə artmış, əhalinin gəlirləri 10,3 dəfə, hər nəfərə düşən gəlirlər 8,6 dəfə yüksəlmişdır, xarici ticarət dövriyyəsi 7,5 dəfə, ixrac isə 7,3 dəfə artmışdır.

2008-ci il qlobal maliyyə-iqtisadi böhranı nəticəsində dünyanın aparıcı ölkələrində baş vermiş kəskin ressesiyaya baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi davam etmişdir. Qeyd edək ki, son iki ildə dünyada gedən mürəkkəb siyasi, hərbi, iqtisadi proseslər nəticəsində neft qiymətlərinin kəskin aşağı düsməsi Azərbaycan iqtisadiyyatına da mənfi təsirini göstərmişdi.
2011-ci ilə qədər İranın ÜDM-i müsbət dinamikaya malik olmüşdur, lakin 2012-cü ildən başlayaraq artıq enmə baş vermişdir. Belə ki, 2012 və 2013-cu illərdə real ÜDM-in artım tempi müvafiq olaraq -6,6% və -1,9% olmuşdur (cədvəl1). Bunun səbəbini daxili amillərlə yanaşı qərb ölkələri tərəfindən tətbiq olunan sanksiyaların gücləndirilməsi, o cümlədən də neft ixracına tətbiq olunan məhtudiyyətlərlə əlaqələndirmək mümkündür. İqtisadi artımın əhəmiyyətli dərəcədə enməsi, təbii ki, digər makroiqtisadi göstəricilərədə təsirsiz ötüşmədi. Qeyd olunan illərdə 30,8 və 34,7% təşkil etmiş və milli valyuta 2 dəfə qədər dəyərdə düşmüşdür.

Cədvəl 1

**İran İslam Respublikasının əsas makroiqtisadi göstəriciləri**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| **ÜDM (mlrd.doll)** | 382 | 379 | 415 | 390 | 412 |
| **Real ÜDM artımı (%)** | -6,6 | -1,9 | 4,3 | 0,4 | 4,5 |
| **İnflyasiya (%)** | 30,8 | 34,7 | 15,6 | 11,9 | 7,4 |
| **İxrac (mln. doll)** | 97,3 (-33,3%) | 92,9 (-4,4%) | 86,5 (-4,2%) | 64,6 (-25,4%) | 67,4 (+4,3%) |
| **İdxal (mln. doll)** | 68,7 (-11,3%) | 63,6 (-11,9%) | 65,1 (-7,6%) | 52,4 (-19,5%) | 65,0 (24,0%) |
| **Rialın dollara nisbətdə kursu, min rial** | 12,3 | 24,8 | 24,8 | 29,9 | 31,6 |
| **Dövlət xərcləri (%)** | 14,5 | 15,0 | 15,7 | 17,2 | 17,1 |
| **Carı hesablar balansı (%)** | 6,1 | 7,0 | 3,8 | 2,1 | 4,2 |

Mənbə: ***IMF World Economic Outlook Database***

Lakin cədvəldə əhatə olunan dövrdə devalvasiyaya baxmayaraq ixrac əhəmiyyətli dərəcədə enmiş və yalnız 2016-ci artmışdır. Təbii ki, buna səbəb tətbiq edilmiş sanksiyalar olmuşdur. Gördüyümüz kimi eyni dinamika idxal üzrə də müşahidə olunur. 2016-ci ildə isə ixrac və idxalın artması səbəbi İsveçrədə İranın nüvə proqraması ilə bağlı müsbət danışıqların aparılması ilə bağlı olmuşdu.

ÜDM-un artım tempin və inflyasiyanın enməsi bunu göstərir ki, İranda uzun müddət sanksiyalara məruz qalması səbəbindn artıq istehsal prosesi baş vermişdir, bu ümumilikdə ÜDM-un sabit səviyyədə artım tempin olmasına gətirib çıxartmış, lakin buda yüksək inflyasiya dərəcəsinin olaması ilə nəticələnmişdir. 2016-ci ilin yanvar ayında nüvə silahın işlənilməsi ilə bağlı İrana qarşı sanksiyaların aradan qaldırılması, bundan başqa parlamentdə islahatçıların qalib gəlməsi nəticəsində, ölkənin iqtisadiyyatında mühüm iqtisadi dəyişikliklər baş verdi. Belə ki, ekspertlərin fikirincə (MENA Economic Monitor Report) 2018-ci ildə ən azı 3,5% - 4,2% iqtisadi artım gözlənilir.

2013-cü ilin noyabr ayında İran və P5 + 1 (ABŞ, Böyük Britaniya, Fransa, Rusia, Çin və Almaniya) arasında Joint Plan of Action (JPOA) hazırlanması və onun səbəbindən yaranan dinamizm 2014-cü ildə iqtisadiyyatın bərpasına gətirib çıxartmışdır, lakin bu artım 2015-ci ildə dayanmışdır. Bunun əsas səbəbi sanksiyaların aradan qaldırılmasından sonra bəzi institusional xarakterli problemlərin yaranması və JPOA ilə gələcək əməkdaşlığın planlaşdırılması olmuşdur. Belə ki, 2014-cü ildə real ÜDM 4,3% artmışdır bu ilk öncə istehlakçıların və biznesin etibarlığın yaranması ilə əlaqələndirmək olar. 2015-ci ildə İran iqtisadiyyatında artım tempin surəti 0,4% olmuşdur. Tədbiq olunan mülayım monetar siyasətinə baxmayaraq inflyasiya təzyiqi dərəcəsi enməyə başladı ki, bu da istehlak qiymətlərin indeksini 2012-ci ildə 30,8% dərəcəsindən 2015-ci ildə 11,9% enməsinə gətirib çıxartmışdır. 2016-cı ilin yanvar ayında sözügedən planın güvvəyə minməsi İranın nüvə proqramı ilə bağlı tətbiq olunan sanksiyaların aradan qaldırılmasına imkan yaratdı və cədvəldən göründüyü kimi 2016-ci ilin makroiqtisadi göstəricilərinə müsbət təsiri oldu.

İran iqtisadi modeli "Tövhid" prinsiplərinə əsaslanır. Onun işlənib hazırlanması zamanı müsəlman icması ilə fərd münasibətlərinə böyük önəm verilir. İslam dövləti hər iki tərəfin hüququnun reallaşdırıcısıdır. Bu prinsiplərin təmin olunması üçün İslam inqilabının ilk illərində metod olaraq milliləşmə seçildi. 1979-cu ildə qəbul olunmuş İran konstitusiyası ictimai mülkiyyətin inkişafını daha çox təqdir edirdi. Ruhanilik iri özəl mülkiyyətin mövcudluğuna elə də isti münasibət göstərmirdi. Ilk əvvəl dövlət mülkiyyətinin genişlənməsi dövlətin qiymətləri tənzim etməsi üçün şərait rolunu oynayırdı.

İranın iqtisadi xüsusiyyətlərinin öyrənilməsi zamanı o da məlum olmuşdur ki, İranda iqtisadiyyatı inkişaf etdirmək üçün sağlam iqtisadi şərait və müvafiq qurunlar vardır. Eyni zamanda İran elm və texnikanın istehsala daha çox



tətbiq edilməsini təqdir edir. İran kifayət qədər əhali və mütəxəssis resurslarına malikdir. Ancaq bununla belə bu sahədə də Azərbaycan bir sıra sahələrdə İrana öz köməyini göstərə bilər.

### 2. Azərbaycan və İran İslam Respublikası arasında iqtisadi-investisiya əməkdaşlığı və xarici ticarət əlaqələrinin qiymətləndirilməsi

İran hökuməti öz geosiyasət kursunda Cənubi Qafqaza böyük əhəmiyyət verməkdədir. Azərbaycan isə Cənubi Qafqazın tarixi baxımından ən qədim, mədəni baxımından ən zəngin, iqtisadi baxımından isə ən güclü ölkəsidir. Eyni zamanda Azərbaycan və Iran arasında sıx tarixi əlaqələr mövcuddur. Bu səbəb və amillər Azərbaycanı İranın Cənubi Qafqaz siyasətinin mərkəzinə gətirməkdədir. Azərbaycan da daim İranla olan xüsusi münasibətlərini, bu ölkənin Yaxın və Orta şərqdə yerini, habelə dünyada gedən proseslərdə İranın rolunu öz xarici siyasətində nəzərə almaqdadır. Göstərilən amillər İran-Azərbaycan əlaqələrinin həm siyasi, həm də iqtisadi təzahürlərində özünü biruzə verir. Şərait, şərtlər və tələbatlar isə Azərbaycan və İran arasında iqtisadi əlaqələrin əsas istiqamətlərini müəyyən edir.

İran və Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafı hər iki tərəf üçün çox böyük əhəmiyyət kəsb edir. Belə ki, qloballaşan dünya iqtisadi sistemi daxilində İran və Azərbaycan iqtisadiyyatlarının da müəyyən qarşılıqlı asılılığı mövcuddur. Azərbaycan iqtisadiyyatının son dövrlərini əks etdirən statistik məlumatlara baxılarsa İranın Azərbaycanla hansı sahələrdə idxal-ixrac münasibətlərində necə mövqe tutması ortaya çıxar. Həmin rəqəmlər bir sıra istiqamətlərdə İranın Azərbaycana idxalda aparıcı yerlər tutduğunu sübut etməkdədir.

Azərbaycan-İran ticarət əlaqələrinin inkişaf dinamikasını aşağıdakı cədvəldə öz əksini tapır:

Cədvəl 2.

**Azərbaycan və İran arasında ticarət dövriyyəsi (mlyn ABŞ doll)**

| Il | Ticarət dövriyyəsi | İrana ixrac | İrandan idxal | Ticarət saldosu |
|---|---|---|---|---|
| **2007** | 539,9 | 434,7 | 105,2 | + 329,5 |
| **2008** | 452,8 | 355,6 | 97,2 | + 258,4 |
| **2009** | 166,8 | 90,1 | 76,7 | + 13,4 |
| **2010** | 243,2 | 125,0 | 118,2 | + 6,8 |
| **2011** | 305,3 | 144,8 | 160,5 | - 15,7 |
| **2012** | 263,7 | 87,3 | 176,4 | - 89,1 |
| **2013** | 281,0 | 73,3 | 207,7 | - 133,4 |
| **2014** | 186,6 | 39,4 | 147,2 | - 107,8 |
| **2015** | 124,8 | 34,3 | 90,5 | - 56,2 |
| **2016** | 210,8 | 49,7 | 161,1 | - 111,4 |

Mənbə: ***http://www.stat.gov.az/source/trade/***

Cədvəldən göründüyü kimi son illər ərzində İranla Azərbaycan ticarət əlaqələrində İranın Azərbaycana ixrac etdiyi məhsullar, buradan idxal etdiyindən çox olmuşdur. Bu isə, o cümlədən onunla əlaqədardır ki, İranın istehsal etdiyi məhsullara Azərbaycanda tələb var.

İrandan Azərbaycana kənd təsərrüfatı məhsulları, inşaat-tikinti materiallarının ixrac edilir. İran məişət elektronikası Azərbaycan bazarında kifayət qədər alıcı marağına malikdir. Eyni zamanda İrandan Azərbaycana məişət kimyası məhsulları kifayət qədər gətirilir. Bunlar İrandan Azərbayana ixrac edilən məhsulların kifayət qədər çeşidə malik olduğunu göstərir. Amma məhsulların məçeşidləri arasında yüngül və yeyinti məhsullarının üstünlük təşkil etməsi ixracın strukturunda dəyişikliklər edilməisini zəruri edir. Azərbayana idxal edilən yüngül və yeyinti məhsullarının ixracı təqdirə layiq haldır. Fəqət İrandan Azərbaycana kapital tutmlu malların ixracının artırlması həm İranın, həm də Azərbaycanın maraqlarına cavab verir.

Azərbaycandan İrana idxal edilən məhsullar arasında həmişə olduğu kimi metal və metal məhsulları, kimya sənayesi məhsulları, tütün və tütün məhsulları və b. məhsullar üstünlük təşkil edir. İranın idxal etdiyi bəzi mallar bu ölkənin özü tərəfindən də istehsal edilir. Fəqət bəzən İran kimi böyük bir əraziyə sahib olan dövlət özündə istehsal edilən məhsullardan idxal etməkdə maraqlı olur. Məsələn, Azərbaycandan idxal edilən benzin əsasən İranın mərkəzindən gətiriləcək benzinin bahalığını kompensasiya edir. İran həmçinin Azərbaycan vasitəsilə Rusiyadan xeyli miqarda məhsullar idxal edir.

Azərbaycan Respublikası ilə İranın iqtisadi əlaqələrində aparıcı rol İranın Şərqi Azərbaycan və Qərbi Azərbaycan Ostanına məxsusdur. Bunu şərtləndirən əsas səbəb coğrafi, tarixi və dil amilləridir. Məlumatlardan aydın olur ki, məsələn, əsas olaraq Şərqi Azərbaycan Ostanından Azərbaycan Respulikasına aşağıdakı məhsullar ixrac olunur: təzə meyvələr, quşçuluq məhsulları, sənaye məhsulları, şüşə məmulatları, plastik məmulatları. Azərbaycan Respubliksından Şərqi Azərbaycan Ostanına isə ixrac edilən mallar aşağıdakı çeşiddən: dəmir alətləri, plastik məmulatların müxtəlif çeşidləri, sənaye alətləri, çap kağızı, elektrik ləvazimatları, sənaye maşınları alətləri və s. ibarətdir.

İran və Azərbaycan daxil olmaqla Şərqin əsas ölkələrin investisiyaların dinamıkası göstərir ki, Azərbaycan investisiyaların xarici ölkələrə qoyuluşuna görə daha böyük həcmə malikdir nəin ki İran. Əslində bu onu göstərir ki, Azərbaycan artıq xarici investor rolunda dünya iqtisadiyyatında aktiv iştirak edir. Lakin İranda bu situasiya tam əksinədir. Sanksiyaların tədbiqi səbəbindən İranda daxili potensialın artmasına həmişə böyük diqqət yetirilib, ancaq təbii ki bu kifayyət deyil. Məlum siyasi səbəblər ucbatından Qərbdə maliyyə proseslərindən kənarda qalmış İran iqtisadi münasibətlərini ideologiya və siyasət üzərində deyil, iqtisadi maraqlar üzərində qurmuş dövlətlərlə, o cümlədən Azərbaycanla iqtisadi investisiya ünsiyyətində maraqlıdır. İran investisiyasıyaları bu gün Azərbaycanın iqtisadiyyatının müxtəlif sahələrində özünə yer etmişdir. Doğrudur strateji mahiyyət daşıyan dövlət layihələrini çıxmaq şərti ilə, investisiyaların həcminə və strukturuna nəzər yetirsək, fikrimizcə, burda İran və Azərbaycan daha aktiv əlaqəli investisiya prosesinə daxil olmalıdırlar. Bü gün etiraf etmək lazımdır ki, İranın investisiyaların cəlb edilməsində və yeni texnologiyaların istifadə edilməsində böyük ehtiyacı var, ən əsası da milli iqtisadiyyatın enerji sektorun inkişafında. Bizim fikrimizcə bu məsələdə Azərbaycanın rolu böyük ola bilər. İran və Azərbaycan qarşılıqlı investisiya yatırımlarında maraqlıdırlar, çünki investisiya fəaliyyətinin güclənməsi bu gün aktual olan regional və beynəlxalq təhlükəsizliyə mühüm təsir göstərən amillərdəndir.



Müasir dövrdə Azərbaycan üçün İranla normal iqtisadi münasibətlərə malik olmaq birbaşa onun müstəqilliyini möhkəmləməsinə müsbət təsir göstərən amillərdəndir. İran üçün Azərbaycan yeni iqtisadi tərəfdaş və ona çox vacib olan şimal bazarına çıxışda mühüm tranzit yoldur. Eyni zamanda mürəkkəb beynəlxalq siyasi proseslərdə Azərbaycanla inkişaf edən iqtisadi əlaqələr İranın təhlükəsizliyi üçün zəmanətlərdən biridir. İkitərəfli əhəmiyyətlə yanaşı Azərbaycan-İran iqtisadi əlaqələri regional inteqrasiya və təhlükəsizlik üçün də mühüm şərtdir.

İran Azərbaycanda yol infrasturukturunun təkmilləşdirilməsi və yenidən qurulması layihələrində iştirakı məqsədəuyğun sayır. Bunun da bir sıra səbəbləri vardır. Çünki Azərbaycanda istər Şimal istiqamətində, istərsə də Şərq istiqamətində yolların təkmilləşdirilməsi İranın beynəlxalq ticari fəaliyyət maraqlarına uyğundur. Həmin yollar və xəttlər vasitəsi ilə İran dünya bazarına çıxış əldə edir. Iran-Azərbaycan iqtisadi münasibətlərinin inkişaf etdirilməsi baxımından Azərbaycan yol infrastrukturunun inkişafında çox maraqlıdırlar. Doğrudur, bu istiqamət İran üçün strateji prioritet deyil. Yəni İranın beynəlxalq ticarəti bu istiqamətdən asılı deyil. Fəqət İran ətrafında gərginləşən siyasi-hərbi proseslər fonunda İranın marağındadır ki, dünya bazarına paralel olaraq bir neçə çıxışa malik olsun.

Yol infrastrukturu ilə yanaşı İran Azərbaycanda elektrik enerjisinin ötürülməsi ilə bağlı sahədə də fəal iştirak edir. İran rəsmi mənbələrində və iqtisadi ədəbiyyatında Azərbaycanla enerji mübadiləsi diqqət mərkəzindədir. İran mənbələrində göstərilir ki, Azərbaycana enerji verilməisnin artırılması İran dövlətinin maraqları daxilindədir. Azərbaycan üçün də İran bir enerji tərəfdaşı kimi ölkənin maraqlarına cavab verir. Azərbaycan İranla elektrik enerjisini mübadilə etməklə yanaşı enerji layihələrinin birgə maliyələşdirilməsini planlaşdırır. Bir sıra İran müəssisələri Azərbaycanda enerji layihələrində yaxından iştirak etmişlər. Azərbaycana enerji verilməisinin artırılması İran dövlətinin maraqları daxilindədir. İran öz enerji şəbəkəsini Azərbaycanın enerji sistemi

ilə əlaqələndirərkən iqtisadi təhlükəsizlik maraqlarından çıxış edir.

### 3. Azərbaycan-İran qarşılıqlı iqtisadi münasibətlərinin inkişafı

Azərbaycan-İran iqtisadi əməkdaşlığının möhkəmlənməsi regional dövlət statusunu hər iki ölkə üçün daha da qüclləndirir. İqtisadi inteqrasiya istər İran, istərsə də Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrini yaxınlaşdırır. Bununla da gələcəkdə hər hansısa bir fəsadı önləməyə kömək edir. Azərbaycan-İran iqtisadi əməkdaşlığı hər iki ölkənin regional iqtisadi qurum və institutlarının fəaliyyət mexanizmlərini daha da təkmilləşdirir. Iqtisadi əlaqələr öz əhatəliliyi baxımından həm Azərbaycan, həm də Iran əhalisinin sosial güzaranına da mühüm təsir göstərir. Eyni zamanda hər iki ölkənin işgüzar dairələri üçün iqtisadi əməkdaşlığın inkişafı fonunda yeni fəaliyyət sahələri yaranır. Azərbaycan-İran iqtisadi əməkdaşlığı ölkələrin iqtisadi potensialını gücləndirir, hər iki ölkənin investisiya qurumları üçün əlverişli investisiya mühitini formalaşdırır.

Beləliklə, son dövr hadisələri onu göstərir ki, Azərbaycan-İran iqtisadi əməkdaşlığının inkişafı üçün ən yüksək səviyyədə siyasi iradə vardır. Bu siyasi iradənin gerçəkləşdirilməsi üçün isə Azərbaycan və İranın müvafiq qurumları öz üzərlərinə düşən məsuliyyəti dərindən dərk etməlidirlər. Öz fəaliyyətləri zamanı İran-Azərbaycan əlaqələrinin daha da gücləndirilməsi üçün yeni-yeni optimal fəaliyyət mexanizmləri işləyib hazırlanmalıdırlar. Son Xəzəryanı ölkələrin Dövlət başçılarının Sammiti zamanı bir daha Azərbaycan və İranın yaxınlaşmağa meyli ortaya çıxmışdır. Azərbaycan və İranın iqtisadi əməkdaşlığının müxtəlif istiqamətləri üzrə qətiyyət və fəallıq vardır. Ancaq bu iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi, mövcud imkanların nəzərdən keçirilməsi, yeniliklərin ortaya qoyulması çox vacibdir. Bu baxımdan uğurlarla yanaşı çatışmazlıqlar da diqqətlə öyrənilməlidir. Onların aradan qaldırılması istiqamətində mühüm işlər görülməlidir. Doğrudur, həmin çatışmazlıqların Azərbaycan-İran münasibətlərinin səviyyəsinə köklü təsir etmir. Fəqət əgər onlara fikir verilməzsə, həmin çatışmazlıqlar aradan qaldırlmazsa, gələcəkdə böyük problemlərə yol aça bilərlər. Bu isə nə Azərbaycanın, nə də İranın iqtisadi-siyasi maraqlarına uyğun deyildir. Çünki, Azərbaycan iqtisadi cəhətdən güclü və sabit İranın olamasında, İran da eyni qaydada Azərbaycanın bu cəhətlərə malik olmasında maraqlıdırlar. Hər iki ölkənin iqtisadi mükəmməlliyinin yüksəlməsi üçün isə qarşılıqlı iqtisadi əməkdaşlığın inkişafı zəruridir. Bu zəruriyyət tarixi köklərdən, milli və dini uyğunluqdan, regional əməkdaşlıq və təhlükəsizlik marağından doğur. Azərbaycan İranla iqtisadi əməkdaşlığı gücləndirməklə bir daha onu sübut edir ki, Qərblə isti münasibətlər heç də müsəlman dünyası və qonşularla münasibətə mənfi təsir etmir. Sadəcə bir dövlət var ki, onun siyasəti kor ideoloji düşmənçiliyə və genosidə əsaslanır. Bu da Ermənistandır. Ermənistan da özlüyündə İranla əlaqələrini gücləndirməyə çalışır. İran da beynəlxalq münasibətlər reallıqları baxımından bu ölkə ilə müəyyən münasibətlər saxlamaq məcburiyyətindədir. Fəqət Azərbaycan-İran



münasibətləri daha yüksəkdə və bu əlaqələrin fövqündə dayanmaqdadır. Azərbaycan-İran iqtisadi əməkdaşlığının daha da dərinləşməsi həm də o baxımdan əhəmiyyətlidir ki, bəlkə də İranda Ermənistanla iqtisadi əlaqələrə yenidən baxılsın. Çünki perspektivdə iranlıların Azərbaycanda, azərbaycanlıların isə İranda iqtisadi fəaliyyət imkanlarının daha da inkişafı bu iki strateji tərəfdaşı bir qədər də yaxınlaşdıracaqdır. Belə olan halda İrana bəzi geosiyasi və geoiqtisadi imkanlardan başqa heç nə verə bilməyən Ermənistan İranın xarici iqtisadi fəaliyyət proqramında çox arxa planlara düşə bilər. Çünki Azərbaycanla İranın arasındakı mənəvi bağlılıq və maddi maraqlar birliyi daha güclüdür.

Geoiqtisadi problemlərin araşdırılmasının metodoloji əsaslarına uyğun olaraq Azərbaycan və İranın beynəlxalq iqtisadi münasibətlər sistemində vəziyyətlərini müqayisə etmək olar:

1) Azərbaycandan fərqli olaraq İranın geoiqtisadi siyasətinin formalaşmasında 1979-cu ildən sonra düşdüyü tədric olunma vəziyyəti mühüm rol oynamışdır. Bundan çıxış edən İİR geoiqtisadi amillərdən daxili istehlakı təmin edəcək iqtisadiyyatın təşəkkülündə məqsədli şəkildə istifadə etmişdir. [86]

2) AR və İİR arasında oxşar cəhətlərindən biri də ondan ibarətdir ki, hər iki ölkə Avrasiya məkanını bir-birinə bağlayan yollar şəbəkəsi qovşağı kimi mühüm bir geoiqtisadi qovşağın üzərində yerləşməkdədir.

3) AR və İİR arasındakı fərqli cəhətlər sırasına onların geoiqtisadi təsirləri və son 250 ildə müxtəlif tarixə malik olmalarıdır. Beləki SSRİ-nin tərkib hissəsində olarkən AR iqtisadiyyatı geoiqtisadi amillərlə bilavasitə təmasdan məhrum olmuş, İİR isə hələ islam inqilabından da əvvəl, zəif və müstəqil olmasa da, geoiqtisadi siyasətə malik olmuşdur.

4) İİR və AR bəzi beynəlxalq təşkilatlarda müəyyən məsələlərdə birgə fəaliyyəti qarşılıqlı əlaqələndirirlər. Eyni zamanda İİR və AR arasında geoiqtisadi amillərin necəliyi haqqında milli iqtisadi tələblərdən irəli gələn müxtəlifliklər də mövcuddur.

5) İİR və AR-nın geoiqtisadi inteqrasiya məkanları arasında bəzi eynilik və fərqlilik var. Hər iki dövlət regional iqtisadi əməkdaşlıq məsələlərində sıx əlaqədədirlər. Hər iki ölkənin şirkətləri arasında qarşılıqlı əlaqələrin qədimliyi və möhkəmliyi onların hər ikisinin də geoiqtisadi siyasətinə təsir etməkdədir. Ancaq Azərbaycan həmçinin Qərb iqtisadi məkanına da fəal inteqrasiya siyasəti yürüdür. İİR haqqında bunu demək mümkün deyildir.Çünki İranın təsiri altında olduğu geoiqtisadi amillər ona bu istiqamətdə fəal iştirak etməyə mane olur. Bu baxımdan ən böyük maneə isə ABŞ – ın İranın əleyhinə yönəltdiyi siyasətdir.

6) AR və İİR-ın hər birinə təsir edə biləcək geoiqtisadi amilləri də vardır. Ancaq bir sıra məsələlərdə fikir ayrılıqlarına baxmayaraq İİR və AR bu amillərdən düzgün istifadə etməyə çalışmalıdır.

7) AR-ın İİR-dən fərqli olaraq geomaliyyəni özünə cəlb etmək imkanları daha çox olur. Bunun da əsas səbəbi odur ki, ümumdünya kapitalın əsas

hissəsi Qərbin, xüsusən ABŞ-ın nəzarətindədir.

AR və İİR iqtisadi əlaqələrinin geoiqtisadi amillər baxımından təhlili tədqiqatın digər mərhələlərinə keçmək üçün mühüm bünövrə formalaşdırır. Geoiqtisadi amillərin öyrənilməsi iqtisadi məkanın eyni bölümünə düşən AR və İİR əlaqələrinin bir çox məqamlarına aydınlıq gətirə bilər.

Belə olan halda Azərbaycan və İran qarşısında yalnız aşağıdakı məqamlar sual kimi cavablarını gözləyir. Azərbaycan və İran arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi, mövcud problemlərin həlli baxımından hansı yeni istiqamətlərin inkişaf etdirilməsini zəruri edir? Bu istiqamətlərin işə salınmasında isə hər iki tərəf qərarlıdır.

**4. Azərbaycan-İran iqtisadi münasibətlərinin təkmilləşdirilməsi problemləri**

Azərbaycan-İran münasibətlərinin, xüsusilə iqtisadi əlaqələrinin vacibliyi zaman-zaman onlara yeni elmi üsulların tətbiq edilməsini zəruri edir. Belə ki, hər iki dövlət üçün strateji önəm daşıyan bu əlaqələrdə səthi yanaşmalar böyük təhlükələrə səbəb ola bilər. Buna görə İranla Azərbaycan arasında mövcud iqtisadi münasibət modelləri dövri ehtiyaclardan doğaraq təkmilləşdirilməlidir. Çünki əlaqələrin təkmilləşdirilməsi yaranan problemlər üçün yeni həll istiqamətləri ortaya qoyacaqdır. Problemlər dedikdə isə ilk öncə Azərbaycan-İran strateji tərəfdaşlığına zərər gətirə biləcək məsələlər nəzərdə tutulmalıdır. Hər iki dövlətin başçıları Azərbaycan-İran iqtisadi, siyasi əlaqələrinin təkmilləşdirilməsinin hər iki tərəf üçün vacibliyini dəfələrlə vurğulamışlar. Yəni bu onun göstəricisidir ki, əlaqələrin vacibliyini yaxşı başa düşən siyasi iradənin yanında mütləq mütəxəssislərin gərgin fəaliyyəti lazımdır. Düzgün həll istiqamətlərinin formalaşması üçün isə əlaqələrin detallarına qədər mütəmadi izlənilməsi və öyrənilməsi lazımdır. Azərbaycan-İran iqtisadi əlaqələrinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi üçün mövcud problemləri qruplaşdırmaq düzgün olardı. Yalnız o zaman problemi optimal variantlarla həll etmək mümkündür.

Azərbaycan-İran iqtisadi əlaqələrinin təkmilləşdirlməsi hüquqi münasibətlərin tənzimlənməsi olmadan mümkün deyil. Azərbaycan və İran arasında kifayət qədər iqtisadi əlaqələri tənzimləyən hüquqi sənədlər imzalanmışdır. Ancaq bu sənədlərin bir çoxu 1990-cı illərin əvvəllərində imzalandığı üçün bir sıra yeni məsələləri tənzimləmək baxımından yeniləşmələrinə ehtiyac var. Eyni zamanda İran ətrafı beynəlxalq iqtisadi-siyasi vəziyyətdə də fərqliliklər vardır. Belə olan təqdirdə Azərbaycan-İran münasibətlərinin tənzim edəcək yeni hüquqi sənədələrə də ehtiyac var. Həmçinin bu müqavilələrin əhatə spektri genişlənməlidir. Azərbaycan-İran müştərək komissiyasının fəaliyyəti əlaqələrin inkişaf etdirilməsi baxımından təqdirəlayiqdir. Vaxtında həyata keçirilməyən layihə ehtimal gəlirləri ya təmin edə bilməz, yaxud onların miqdarını azaldar. Azərbaycan-İran iqtisadi əlaqələrinin strateji səciyyəsi isə bütün iqtisadi tədbirlərin vaxtında həyata keçirilməsini tələb. Azərbaycan-İran iqtisadi əlaqələri akademik olaraq öyrənilməlidir. İstər şəxslər, istərsə də müvafiq qurumlar tərəfindən bu münasibətlərin öyrənilməsinə böyük ehtiyac vardır. Azərbaycan-İran iqtisadi əlaqələrinin problemlərinin təkmilləşdirilməsi Ermənistan təcavüzünün həllini də tələb edir. Çünki Azərbaycanın İranla həmsərhəd olan bir neçə rayonunun Ermənistan tərəfindən işğal edilməsi Azərbaycana öz potensial imkanlarından istifadə etməyə imkan vermir. Eyni qaydada Azərbaycanda müəyyən siyasi dairələrdə İranın ərazi bütövlüyünü təhdid edən fıkirlər də bu qəbildəndir. Azərbaycan və İran hökümətləri qarşılıqlı suverenlik və ərazi bütövlüyünə hörmət əsasında fəaliyyət göstərirlər. Azərbaycan-İran iqtisadi əlaqələrinin uğurla inkişaf etməsi zamanı ikitərəfli amillərlə yanaşı beynəlxalq proseslər də təsir göstərməkdədir. Müvafıq beynəlxalq qurumların İranın nüvə araşdırmalarını təftiş etməsinə İranın icazə verməsi bu qüvvələrə əsaslı dəlil kimi görsənmir.İrana qarşı iqtisadi sanksiyalar, hətta hərbi gücdən istifadə edilməsindən danışılır.



Bizim tədqiqatımızın əsasına müəyyən olunmuşdur ki, iki ölkə arasında gələcək iqtisadi əlaqələrin formalaşmasında ilk növbədə onların arasında identik elementlərin müəyyənləşdirilməsi vacıbdır. Lakin, tədqiqatlarımız nəticəsində qeyd etməliyik ki, təhlil olunmuş göstəricilər tam düzqün mənzərəni göstərə bilmir və ona görədə Azərbaycan və İran münasibətlərin gələcək situasiyasını iqtisadi cəhətdən təhlil etmək mümkün olmur. Bu onunla bağlıdır ki, ölkələr nəqədər oxşar hədəflər qoysada, hər biri buna müxtəlif istiqamətdə nail olur. Bundan başqa olkələr müasir dünya iqtisadiyyatı şəraitində ümumi vahid məhsul istehsalı sisteminə daxil olaraq ümumilikdə qlobal əlavə dəyər zəncirinin (GVC) elementlərinə çevrilər. Bu o deməkdir ki, ölkələr ayrı-ayrılıqda iqtisadi inkişaf trendlərində müxtəlif meyillərə məxsusdur. Lakin onu da qeyd etməliyik, iqtisadi siyasətlərdə müxtəlifliyə baxmayaraq məhz bu sistemin daxilində birqə iştirakı nəticəsində müxtəliflik aradan qaldırılır. Hətta onu da qeyd edə bilərik ki, iqtisadi əlaqələr GVC xaricində daha intensiv inkişaf etməyə başlayır.

GVC sistemində coğrafi baxımından ölkələr müxtəlif reqionlarda yerləşməsinə baxmayaraq ümumi istehsal prosesində iştirak edir və əgər bu əlaqə zəncirində müxtəlif problmin yaran

Uzun illər boyu sanksiyaların ücbatından, İran bu sistemin xaricindədir, lakin ona baxmayaraq səmərəli şəkildə öz milli iqtisadiyyatını inkişaf etdirə bilmiş və xarici iqtisadi fəaliyyəti dar çərçivədə olmasına baxmayaraq cüzi də olsa bu fəaliyyəti həyata keçirə bilmişdir. Buna baxmayaraq, qeyd etmək lazımdır ki, müasir dünya iqtisadiyyatının vəziyyətini nəzərə alaraq İran qlobal proseslərindən lazımı fayda əldə etməmişdir. Azərbaycan isə əksinə, balanslaşdırılmış siyasəti həyata keçirərək böyük həcmdə həm iqtisadi və həm də siyasi cəhətdən müsbət nəticələr əldə etmişdir. Belə ki, Azərbaycan həm ABŞ, həm də digər Qərb dövlətləri ilə gözəl münasibətlər qurmaqla yanaşı region

dövlətləri ilə əməkdaşlığa əhəmiyyət verməkdədir. Bir tərəfdən Bakı-Tbilisi-Ceyhanla Qərbin ən lazımlı tərəfdaşlarından birinə çevrilmiş, digər tərəfdən isə Xəzəryanı dövlətlərin sammitində qonşu dövlətlərin təhlükəsizliyi, o cümlədən də İranın təhlükəsizliyinə tərəfdar çıxmaqla qonşuluq siyasətinə sədaqətini sübut etmişdir. Azərbaycanın da, İranın da bu siyasətini davam etdirməsi zəruri olan bir məsələdir.

Sanksiyalar şəraitində milli iqtisadiyyatı yaşatdıran İran əslində iqtisadi strukturuna görə postsovet ölkələrinə bənzəyir. Bizim tədqiqatlarımız göstərir ki, İran əsasən bu ölkələrlə iqtisadi əməkdaşlığı aparmağa maraqlıdır. Təbii ki, bu Cənubi Qafqaz ölkələri və Rusiya Federasiyasıdır. Lakin qeyd etmək olar ki, İran eyni zamanda Yaxın Şərq ölkələrlə də iqtisadi əlaqələrə nail olub. Bu əsasən OPEC-in üzv-ölkələrə məxsusdur. Azərbaycanla və İran arasında olan münasibətlərin tədqiqi məhz bu situasiyanı aşkarlayır. Bu onu göstərir ki, nisbətən ərazi baxımından böyük ölçüyə malik olan İran Azərbaycanla iqtisadi əlaqələrdə kifayət dərəcədə iqtisadi fayda əldə etmək olar. Bu o deməkdir, əslində İran Azərbaycanı Cənubi-Qafqaz regionunun ölkəsi kimi bu konteksdə yox əsas bir tərəfdaş kimi qəbul etməlidir. Bizim fikrimizcə Ermənistan və Gürcustanla iqtisadi əlaqələri geoiqtisadi siyasətin tələbləri olsada, İran-Azərbaycan iqtisadi münasibətləri tam başqa formatda baxılmalıdır.

**5. Azərbaycan-İran iqtisadi münasibətlərinin gələcək iqtisadi əlaqələrin prognozu və modelləşdirilməsi**

İrandan fərqli olaraq Azərbaycan Cənub-Qafqaz regionun əsas qüc mərkəzi olaraq öz geoiqtisadi maraqlarını Xəzəryanı regionu çərçivəsində həyata keçirərək Qara Dəniz iqtisadi və geoiqtisadi məkanında aktiv formada bütün layihələrdə nəinki iştirak edir hətta bir nəçəsinin reallaşmasında təşəbüskarlıq edib. Əslində belə bir strategiyanın əsasında Azərbaycan hər iki regionun arasında inteqrasiyasını sürətləndirilməsində həlledici rol oynadır.

Bununla əlaqədar, biz tədqiqatımızda İran və Azərbaycan arasında əlaqələrin gələcək mənzərəni müəyyən etmək məqsədi ilə aşağıdaki ekonometrik hesablamalar aparılıb:

• Hər iki ölkə üçün 2025-ci ilə qədər ÜDM, Kapital yığımı, İdxal və İxrac göstəricilərin proqnozunu verilib;

• Tendensiyaları görmək üçün müvafiq qrafiklər qurulub;

• Mövcud və proqnoz göstəricilərin dinamikaların trendlərini polinominal tənliklərini quraraq gələcəkdə gözlənilən situasiyanın etibarlılığı müəyyən edilib.

Cədvəl 3-də gördüyümüz kimi (EXSEL Proq., TENDENCY Func) hər iki ölkənin 2025-ci ilə gədər proqnozlar hesablanıb və bu göstəricilərin əsasında qrafiklər qurulmuşdur. Əldə edilmiş rəqəmlərin əsasında ölkələr üçün uyğunluq nisbətini müəyyənləşdirərək biz iki ölkə arasında iqtisadi əlaqələrin səmərəliyi olduğunu müəyyən edə bilərik.



Cədvəl 3

**İran və Azərbaycanın əsas iqtisadi göstəricilərin 2007-2017-ci illər üçün dinamikası və 2025-ci ilə qədər proqnoz göstəriciləri**

| Il | Əsas kapitalın ümumi yığımı | Xalis İxrac | İxrac | Idxal | ÜDM | ÜDM | kapital yığımı | İdxal | İxrac |
|---|---|---|---|---|---|---|---|---|---|
| | İran İslam Respublikası (mln. real) | | | | | Azərbaycan Respublikası (mln. manat) | | | |
| 2007 | 532 810 | 181 526 | 733 810 | 552 284 | 2 382 675 | 28360,5 | 33 939,3 | 6045 | 21269 |
| 2008 | 691 893 | 264 627 | 906 983 | 642 356 | 3 072 615 | 40137,2 | 40 641,2 | 7574 | 30586 |
| 2009 | 947 460 | 274 949 | 1 063 272 | 788 322 | 3 655 196 | 35601,5 | 50 183,0 | 6513 | 21096 |
| 2010 | 1 077 198 | 151 580 | 935 267 | 783 687 | 3 894 224 | 42465 | 54 735,8 | 6745 | 26476 |
| 2011 | 1 142 473 | 296 894 | 1 221 849 | 924 955 | 4 855 862 | 52082 | 61 436,6 | 10166 | 34494 |
| 2012 | 1 358 153 | 732 250 | 1 629 643 | 897 393 | 6 339 622 | 54743,7 | 66 659,5 | 10417 | 32634 |
| 2013 | 1 395 833 | 366 155 | 1 502 040 | 1 135 885 | 7 420 801 | 58182 | 74 186,4 | 10320 | 31703 |
| 2014 | 1 729 905 | 662 836 | 2 395 319 | 1 732 483 | 10 125 724 | 59014,1 | 84 262,4 | 9332 | 28259 |
| 2015 | 1 988 749 | 729 631 | 2 460 719 | 1 731 088 | 11 487 170 | 54380 | 95 451,1 | 9773 | 15586 |
| 2016 | 2 362 891 | 522 475 | 2 106 415 | 1 583 940 | 11 677 217 | 60393,6 | 110 677,9 | 9345 | 13210 |
| 2017 | 3 347 646 | 1 484 081 | 3 301 298 | 1 817 217 | 13 573 230 | 67031,73 | 110826,933 | 10961,8 | 21268,13 |
| 2018 | 2894500 | 1060636 | 3024845 | 1964209 | 14165578,4 | 69049,92 | 119396,64 | 11209,85 | 18426,25 |
| 2019 | 3168891 | 1180119 | 3302420 | 2122301 | 15598911,7 | 72437,75 | 128055,56 | 11637,07 | 16932,21 |
| 2020 | 3451842 | 1314740 | 3596896 | 2282156 | 17073830,2 | 74043,68 | 137472,166 | 11709,86 | 13120,54 |
| 2021 | 3762982 | 1450819 | 3904737 | 2453918 | 18539531,1 | 75666,5 | 146677,991 | 11532,02 | 9496,447 |
| 2022 | 4081327 | 1550505 | 4156065 | 2605560 | 19862786 | 78397,74 | 155837,267 | 11864,33 | 7451,217 |
| 2023 | 4384365 | 1649919 | 4404552 | 2754633 | 21095685,9 | 81358,95 | 164370,268 | 12305,42 | 5758,398 |
| 2024 | 4688277 | 1820008 | 4679738 | 2859729 | 22309060,3 | 84844,6 | 172378,458 | 12800,59 | 4819,037 |
| 2025 | 4946542 | 1915362 | 4873472 | 2958110 | 23414337,2 | 88401,27 | 180264,599 | 13098 | 4315,172 |

Tədqiqat və əldə edilmiş proqnoz göstəricilərin təhlili göstərir ki, hər iki ölkədə kapital yığımın artmasına baxmayaraq ixrac göstəriciləri pisləşir. Azərbaycanda hətta enmənin tempi yüksəkdir, İranda isə bu göstəricənin artım tempi geriliyir.




**Şək.1. İran İslam Respublikasının əsas makroiqtisadi göstəricilərin dinamikası (2007-2017-ci illər) və 2025-ci ilə qədər proqnoz trendi**

Belə nəticəyə gəlirik ki, hər iki ölkə ixrac potensialın artmasına böyük diqqət yetirməlidirlər. Həm əmtəə, həm də coğrafi ixrac strukturunda dəyişiklər aparmağa zərurət doğurur. Ölkələr bir birinə üstünlük verməklə qarşılıqlı iqtisadi fayda əldə edilmiş olurlar.

Qrafiklərdə gördüyümüz kimi əldə edilmiş rəqəmlər şübhə doörutmur. Approksimasiya əmsalları daqiq meyil göstərərək 90% səviyyəsində verilib. Bu o deməkdir ki, əldə edilmiş proqnoz göstəriciləri mövcud vəziyyətini tam əks etdirir və hər hansı dəyişiklik etməsə iqtisadi potensialın artmasında böyük ənqəllər yaranacaq.




**Şək.2. Azərbaycan Respublikasının əsas makroiqtisadi göstəricilərin dinamikası (2007-2017-ci illər) və 2025-ci ilə qədər proqnoz trendi**

Qrafiklərdə qurulmuş 3-cü dərəcəli polinominal tənliyin mənfi olaması onu göstərir ki, İranda ÜDM-un artım tempinə təsiri əsasın idxalın enməsinə görə olacaq. Azərbaycanda isə idxalın artması və ixracın enmesi, nəticədə Azərbaycanın ÜDM artım tempinə təsir etməsi əsas göstərici xarici ticarətin enməsi olacaq.

Lakin onu da qeyd etmək lazımdır ki, təhlil olunmuş göstəricilərin əksəriyyəti artan trendini göstərir. Məsələn, kapital yığımın artması onu göstərir ki, Azərbaycan və İran öz əsas kapitalın artmasında işini davam edəcək. Bu əsasən istehsal və sosial infrastrukturun qurulmasından xəbər verir. Onu qeyd etmək lazımdır ki, İranla müqayisədə Azərbaycan dünya iqtisadiyyatına daha dərin inteqrasiya etməsinə görə 2008-ci ildən yaranmış böhranın təzadları mənfi təsir göstərib.

ÜDM və kapital yığımın dinamikaların birqə təhlili göstərir ki ÜDM artım tempin enməsinə baxmayaraq kapital yığım artımı 2017-ci illə müqayisə-



də 2025-ci ildə 5,5% artım templə 47,8% artacaq. Azərbaycanda isə orta hesabla 2,3% artım templə artım 62,6% artacaq. Biz bir onu vuruqlaya bilərik ki əslində hər iki ölkənin ÜDM-un gələcək artımına əsasən mövcud iqtisadi potensialın yenidən təkmilləşdirilməsindən asılı olacaq.

İran İslam Respublikası və Azərbaycan Respublikası arasında iqtisadi əlaqələrin zərurətini sübut etmək üçün biz aşağıdaki üslübda iqtisadi-riyazi modeli qurmuşuq, onuda qeyd etməliyik ki, modeldə 2025-ci ilə qədər əldə edilmiş proqnoz məlumatları istifadə olunmuşdur:

1. Reqressiya tənliklərin müəyyən edilməsi;
2. Cütlük korrelyasiyanın matrisası;
3. Reqressiya modeli;
4. Çoxluq korrelyasiya əmsalın hesablanması

İran üçün reqressiya tənliyi:

$$\mathbf{Y = -1967.6478 - 3.1241X1 + 3444.1918X2 - 3436.3177X3 + 3442.6855X4} \quad \mathbf{(1)}$$

Azərbaycan üçün reqressiya tənliyi:

$$\mathbf{Y = -6.9993 + 0.4886X1 + 0.2867X2 + 0.7916X3} \quad \mathbf{(2)}$$

**İİR üçün Cütlük Korrelyasiyanın Matrisası**

| - | y | $x_1$ | $x_2$ | $x_3$ | $x_4$ |
|---|---|---|---|---|---|
| y | 1 | 0.9899 | 0.9611 | 0.9936 | 0.9951 |
| $x_1$ | 0.9899 | 1 | 0.9761 | 0.99 | 0.9778 |
| $x_2$ | 0.9611 | 0.9761 | 1 | 0.9824 | 0.9468 |
| $x_3$ | 0.9936 | 0.99 | 0.9824 | 1 | 0.9902 |
| $x_4$ | 0.9951 | 0.9778 | 0.9468 | 0.9902 | 1 |

y – ÜDM, $x_1$ – Əsas kapitalın yığımı; $X_2$ – saldo; $X_3$ – İxrac; $X_4$ - İdxal

**İİR üçün Reqressiya Modeli**

Reqressiya modelin əsasında bütün əlamətləri aşağıdaki düstürların əsasında standart formasına keçirilir:

$$t_j = \frac{xj_i - \overline{xj}}{S(x_j)} \quad (3)$$

$x_{ji}$ – dəyişən dəyər $x_{ji}$ i-müşahidədə.

$$t_y = \frac{y_i - \overline{xj}}{S(y)} \quad (4)$$

β - əmsalı qiymətləndirmək üçün ən aşağı kvadrat üslübündan istifadə edək. Yuxarıda təqdim olunmuş cütlük korrelyasiyanın rəqəmlərindən istifadə edərək tənliklər sistemini həll edirik:

$0.99 = \beta_1 + 0.976\beta_2 + 0.99\beta_3 + 0.978\beta_4$
$0.961 = 0.976\beta_1 + \beta_2 + 0.982\beta_3 + 0.947\beta_4$ (5)
$0.994 = 0.99\beta_1 + 0.982\beta_2 + \beta_3 + 0.99\beta_4$
$0.995 = 0.978\beta_1 + 0.947\beta_2 + 0.99\beta_3 + \beta_4$

Qauss metodu: $\beta_1 = 0.395$; $\beta_2 = -0.469$; $\beta_3 = 1.064$; $\beta_4 = 1.0$;

Reqressiyanın standartlaşmış tənliyi:

$$t_y = 0.395x_1 - 0.469x_2 + 1.064x_3 + 1x_4 \qquad (6)$$

**Bunun əsasında korrelyasiyanın çoxluq əmsalını hesablayırıq:**

$$R=\sqrt{1-\frac{s_\varepsilon^2}{\sum(y_i-\bar{y})^2}}=\sqrt{1-\frac{350359158.38}{884862051.43}}=0.7772 \qquad \textbf{(7)}$$

Çoxluq korrelyasiyanın əmsalı göstərir ki İranın ÜDM və təhlil olunmuş diqər göstəricilərin arasında əlaqə çox sıxdır

$$R=\sqrt{1-\frac{0}{0}}=1 \qquad (8)$$

$$R=\sqrt{0.99\cdot 0.395+0.961(-0.469)+0.994\cdot 1.064+0.995\cdot 1.0E-6}=\sqrt{0.997}=0.998 \qquad (9)$$

**Bunu Determinasiya əmsalıda göstərir:** $R^2 = 0.7772^2 = 0.6041$

Analoju üslübla Azərbaycanla bağlı modeli qururuq:

**Azərbaycan üçün Cütlük Korrelyasiyanın Matrisası**

| - | y | $x_1$ | $x_2$ | $x_3$ |
|---|---|---|---|---|
| y | 1 | 0.9695 | 0.9628 | -0.7168 |
| $x_1$ | 0.9695 | 1 | 0.8939 | -0.8653 |
| $x_2$ | 0.9628 | 0.8939 | 1 | -0.5796 |
| $x_3$ | -0.7168 | -0.8653 | -0.5796 | 1 |

**Tənliklər sistemi:**

$0.969 = \beta_1 + 0.894\beta_2 - 0.865\beta_3$
$0.963 = 0.894\beta_1 + \beta_2 - 0.58\beta_3$ (10)
$-0.717 = -0.865\beta_1 - 0.58\beta_2 + \beta_3$

Qauss metodu: $\beta_1 = 1.335$; $\beta_2 = 0.0356$; $\beta_3 = 0.459$;

Standartlaşmış reqressiya tənliyi: $t_y = 1.335x_1 + 0.0356x_2 + 0.459x_3$ (11)



**Çoxluq korrelyasiyanın indeksi:**

$$R=\sqrt{1-\frac{s_\varepsilon^2}{\sum(y_i-\bar{y})^2}}=\sqrt{1-\frac{3.68}{5296.69}}=0.9997 \qquad (12)$$

$$R=\sqrt{1-\frac{\Delta_r}{\Delta_{r11}}} \qquad (13)$$

$$R=\sqrt{1-\frac{9.0E-6}{0.0128}}=1 \qquad (14)$$

Azərbaycan üçün da Y və X-lərin arasında əlaqə sıxdır.

$$R=\sqrt{\sum r_{yxi}\beta_{yxi}}=\sqrt{r_{yx1}\beta_{yx1}+r_{yx2}\beta_{yx2}+r_{yx3}\beta_{yx3}} \qquad (15)$$

$$R=\sqrt{0.969\cdot 1.335+0.963\cdot 0.0356+(-0.717)\cdot 0.459}=\sqrt{0.999}=1 \qquad (16)$$

Determinasiya əmsalı $R^2 = 0.999$

Belə ki, nəqədər ki əmsal 1 yaxındır o qədər də reqressiya əmsalı Y (ÜDM) dinamikasını izah edir.

Biz deyə bilərik ki, əqər biz qurduğumuz modelin tərkibinə yeni dəyişənləri əlavə etsək reqressiya modeli dəyişəcək.

Hər iki modeli bir biri ilə üzləşdirmək üçün, İran və Azərbaycana məhsus reqressiya tənliklərini sistem metoduna həll edirik:

$x_2 = [-317.755 - (0.63x_3 + 543.56x_4)]/544.696$ (17)
$x_1 = [-7 - (0.29x_2 + 0.79x_3 - 0.5x_4)]/0.49$

$$x_2=\frac{-317.755}{544.696}=-0.583 \qquad (18)$$

$$x_1=\frac{-7-0.29(-0.58)-0.79\cdot-(-0.5)\cdot}{0.49}=\frac{-6.831}{0.49}=-13.94 \qquad (19)$$

Gördüyümüz kimi nəticə mənfi alınır. Əslində ayrı-ayrılıqda hər bir ölkə üçün qurulmuş reqressiya tənlikləri mənfi situasiyanı göstərir. Bu onu göstərir ki, hər ölkənin iqtisadi vəziyyətlərində problemlər mövcuddur.

Bu situasiyanı anlayaraq Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa, orta və uzun-

müddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Sənəd təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və mövcud vəziyyətin GZİT təhlilini, görüləcək tədbirləri, tələb olunan investisiya və nəticə indikatorlarını əhatə edir.

Azərbaycan tərəfindən gəbul olunmuş Strateji Yol Xəritəsi və onun reallaşması nəticəsində Azərbaycanda təhlil olunmuş göstəricilərin səviyyəsi müsbətə doğru dəyişərək əldə edilmiş reqressiya-korrelyasiya modelin müsbətlə nəticələnəcək.

Əqər eyni istiqamətdə İranda belə siyasət həyata keçirilməsə iqtisadi əlaqələrin həyata keçirilməsi üçün heç bir maraq olmayacaq.

Buna qörə də hər iki ölkə milli iqtisadiyyatlarda həyata keçirilən siyasətlər mümkün dərəcədə harmonizasiya olunmalıdır.

Bir də qeyd etməliyik eyni addımları Azərbaycan həyəta keçirdir. Məsələn Azərbaycan və Rusiya, Qazaxıstan və diqər ölkələrdə həyata keçerilən iqtisadi islahatlar və siyasi addımlar izlənilir. Buna adekvat olaraq Azərbaycan öz iqtisadi və sosial siyasətini formalaşdırır.

Bizim fikrimizcə bu gün Azərbaycan və İran İslam Respublikasında oxşar iqtisadi situasiyanın olması və yuxarıda təhlil olunmuş siyası, mədəni və diqər sahələrdə əlaqələri nəzərə alaraq deyə bilərik ki, bu ölkələrin arasında iqtisadi strukturların yaxınlaşmasına böyük ehtiyac duyulur.

## 6. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi əlaqələrin inkişaf perspektivləri

İran İslam Respublikası və Azərbaycan Respublikası arasında müasir əlaqələr sistemi müxtəlif spekterli olduğuna görə apardığımız tədqiqat işi də, iqtisadi sferanı əhatə etməyinə baxmayaraq çox aspektli məsələlərin təhlilinə həsr edilmişdir. Müəyyən olunmuşdur ki, Azərbaycan-İran iqtisadi əlaqələri və onların perspektivlərinin öyrənilməsi istər elmi münasibətlərdə, istərsə də təcrübədə iki ölkə arasında əlaqələrin daha da dərinləşməsinə mühüm nəticələr əldə etməyə imkan verir. Bunu nəzərə alaraq tədqiqat işində əldə edilmiş nəticə və təklifləri aşağıdakı kimi formalaşdırmaq olar:

İran ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafı demək olar ki, hələ eramızdan çox-çox əvvələ gedib dayanan bu əlaqələr bütün təzahürləri ilə strateji əhəmiyyətə malikdirlər.Qeyd etmək lazımdır ki bu köklər İran və Azərbaycan xalqlarının etnogenezinə bağlıdır. Iran və Azərbaycan xalqlarının həm tarixi, həm mədəniyyətləri, həm də iqtisadiyyatları uzun müddət bir-birilə təmasda olmuş və iqtisadi inkişafın bütün nailiyyətlərindən qarşılıqlı şəkildə bəhrələnmişlər. Əgər təsərrüfat tiplərinin formalaşması, əməyin sahələr üzrə bölgüsü və iqtisadi potensialın güclənməsi baxımından hər iki ölkənin iqtisadi


tarixinə nəzər yetirilsə bu zaman demək olar ki, Azərbaycan və İran əldəedilmiş nəticələrinə görə bir-birlərinə minnətdar olmalıdırlar. Bu hadisələrin nailiyyətlərin tarixini aşağıdakı kimi, açıqlamaq olar:

1. XIX əsrdə baş vermiş Rus-İran müharibələri nəticəsində Azərbaycan-İran iki tərəfli birbaşa iqtisadi əlaqələri bütünlükdə dayandırıldı. Rus imperiyası tərəfindən aparılan işgalçı müharibələr nəticəsində Azərbaycan və İran daha vahid iqtisadi ərazini təmsil etmir. Yalnız Azərbaycan ərazisinin bir hissəsi İranın tərkibi kimi çıxış edirdi.

2. 1918-1920-ci illərin əvvələrində Azərbaycan və İran arasında heç bir münasibətlər formalaşsada sonralar hər iki ölkə yaxınlığa cəhd edirdi. Lakin bolşeviklər tərəfindən Şərqdə ilk demokratik dövlətin işğal edilməsində Azərbaycan-İran əlaqələri SSRİ-İran əlaqələri kimi 1991-ci ilə qədər davam etmişdir.

3. 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Əlbəttə, bu zaman yenidən müstəqilliyi əldə etmiş gənc dövlət qonşuları ilə iqtisadi və siyasi münasibətlərə malik olmaq çalışırdı.Lakin bu zaman Ermənistan və onun işğal tərəfdaşları tərəfindən elan edilməmiş müharibə nəticəsində Azərbaycan Respublikasının 20% qədər ərazisi işğal edildi. Bununla yanaşı Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikası blokadaya alınmışdı. Belə bir məqamda Azərbaycan-İran əlaqələri öz növbəti inkişaf mərhələsinə başladı. Bu əlaqələrin bərpası ən çox İrandan Azərbaycana, xüsusən, Naxçıvana yönəldilən humanitar yardımlarda özünü göstərirdi.

4. Azərbaycan-İran iqtisadi əlaqələrində istehlak ehtiyaclarını ödəməyə yönəlmiş xırda və orta ticarətin xüsusi çəkisi artmağa başlamışdı. Azərbaycanda 1990-ci illərdə istehsalın aşağı düşməsi nəticəsində ölkədə İran mallarına olan tələbatı daha da gücləndirirdi.

5. 1992-ci ildə Azərbaycan-İran əlaqələrinin bütün istiqamətlərində bir dürğun hiss olunmağa başladı. Bununda səbəbi Azərbaycanın bəzi vəzifəli şəxslərinin İranın ərazi bütövlüyünə qarşı söylədiyi bir sıra fikirlər olmuşdur.

6. Xəzərin statusu və bir sıra digər problemlərin əsasın qoyulması. Azərbaycan-İran iqtisadi əlaqələri isə xırda və orta sahibkarlığın timsalında inkişaf etməkdə idi. Fəqət bu strateji xassəyə malik olan münasibətlərin dövlət səviyyəsində siyasi iradənin ortaya qoyulmasına ehtiyac vardı.

7. 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə Ulu Öndər Heydər Əliyev gəldi. Müasir Azərbaycan tarixində ilk dəfə olaraq İrana yönəlik konseptual və dövlət maraqlarına uyğun siyasət yürüdülməyə başladı. H.Əliyev İran İslam Respublikası Azərbaycanın dostu elan edərək tarixi ənənələrə və milli maraqlara söykənən bir siyasi kursun əsasını qoydu.

8. Azərbaycan-İran iqtisadi əlaqələri kiçik və orta biznesdən böyük investisiyalar və iqtisadi imkanlar tələb edən mərhələyə keçdi. Azərbaycan və İran dövlətləri arasında dövlət səviyyəsində əhatəli iqtisadi sazişlər, müqavilə-

lər imzalandı. Azərbaycanda mütəmadi olaraq İran iqtisadiyyatının nailiyyətlərini əks etdirən sərgilər keçirilməyə başladı.

9. Azərbaycanla və İran iqtisadi əlaqələrinin əsasını enerji və nəqliyyat layihələri təşkil edirdı. Lakin, Azərbaycanda həmdə İranda resurs satışı ilə yanaşı həmdə bir-birinin geosiyasi yerləşməsindən məqsədli istifadə edilməsinə ehtiyac duyulurdu.

10. 2003-cü ildən Azərbaycan Respublikası Prezidenti kimi fəaliyyətə başlayan İlham Əliyev Heydər Əliyevin kursunu davam etdirdi. İ.Əliyevin xarici siyasətində başlıca hədəf Azərbaycanı real olaraq regional liderə çevirmək oldu.

11. İ.Əliyevin və M.Əhmədinejadın birgə səyləri ilə Azərbaycan və İran arasında hələ çox uzaqlara gedəcək layihələlərin əsası qoyuldu. Hər iki prezidentlərin qarşılıqlı səfərləri Azərbaycan-İran iqtisadi əlaqələrinin güclənməsinə daha bir töhvə verdi.

İki ölkə arasında gələcək iqtisadi əlaqələrin inkişafı, birinci növbədə hər ölkənin milli iqtisadiyyatların ayrı-ayrılıq da iqtisadi durumlarından asılıdır. Tədqiqatlarımız onu göstərdi ki, İran və Azərbaycan Respublikasının iqtisadi inkişafın eyni cəhətlərilə yanaşı həmdə, bəzi məsələlərdə fərqlilik də mövcuddur. Belə ki,

1. İranın milli iqtisadiyyatı Azərbaycan iqtisadiyyatından fəqli olaraq daha çevik və devirsifikasiyalıdır. Bunun əsas səbəbi uzun illər boyu İrana qarşı tətbiq olunan sanksiyalar. Buda iqtisadiyyatda istehsal strukturunun dəyişiklikləri mütamadi olaraq təkmilləşdirilməsini aparmağa məcbur etmişdir. İran iqtisadi modeli “Tövhid” prinsiplərinə əsaslanır. Onun işlənib hazırlanması və tətbiqi zamanı müsəlman icması ilə fərd münasibətlərinə böyük önəm verilir;

2. Azərbaycanın milli iqtisadiyyatı müstəqillik əldə etdikdən sonra daha çox xam neftin satışı üzərində qurulmuşdur. Bunun nəticəsi olaraq 2004-2012-ci illərdə dünya neft qiymətlərin yüksək səviyyədə olması Azərbaycana böyük həcmdə kapitalın daxil olması səbəb olmüşdur. Buda müasir zamanədə Azərbaycan Respublikasının iri investisiya layihələrin həyata keçirilməsində fəal iştirak etməsinə əsası zəmin yaranmışdır;

3. Son vaxtlar aparılmış iqtisadi islahatların nəticəsində Azərbaycanın iqtisadi strukturu İranın iqtisadi strukturuna yaxınlaşmışdır. Buda iki ölkə arasında daha dərin iqtisadi əlaqələrin yaranması üçün müsbət məqamların olması üçün şərait yaranmışdır;

4. Ekonometrik metodlardan istifadə edilməsi və əldə etdiyimiz proqnoz rəqəmlərin təklifi nəticəsində, müəyyən olunmuşdur ki, indiki iqtisadi struktur hər iki ölkə üçün gələcəkdə iqtisadiyyatda artım templərin aşağı düşməsinə gətirib çıxardacakdır. Bununla əlaqədar olaraq, iki ölkə arasında çox spektırlı və çox aspektli əlaqələr sisteminin mövcudluğunu nəzərə alaraq, ölkələr arasında iqtisadi potensialların uyğunlaşması və iqitsadi siyasətlərində


(xarici iqtisadi əlaqələrdə) harmonizasiyanı aparılmasına eytiyac duyulur;

5. Nəqliyyat, yanacaq -enerji, aqrar sektoru və diqər sahələrdə iki ölkə arasında əlaqələrin gücləndirilməsi istiqamətdə konkret işlərin görülməsi məqsədəyuğundur.

Geoiqtisadi cəhətdən iqtisadi əlaqələrin gücləndirilməsinə müsbət nəticə əldə etmək məqsədilə aşağıdaki məsələlərin həllinə zərurət və bir sıra problemlərin həllinə imkan yaranacakdır:

- Azərbaycan-İran iqtisadi əlaqələrinin gələcəkdə inkişafının artan dinamikasını təmin etmək üçün Xəzərin statusu məsələsinin həlli zəruridir.
- Azərbaycan-İran iqtisadi əlaqələrinin inkişafı üçün nəqliyyat, transit gömrük problemlərinin daha da asanlaşdırılması zəruridir. Azərbaycan-İran iqtisadi əlaqələrinin inkişafı nəinki dövlət üçün, eyni zamanda region üçün əhəmiyyətlidir.
- Azərbaycan-İran iqtisadi əlaqələri regional inteqrasiyaya zəmin yaranacaqdır. Son dövrlər sivilizasiyalararası dialoqdan tez-tez söhbət açılmaqdadır. Bu dialoqa iqtisadi münasibətlərin normal inkişafını təmin etmədən, iqtisadiyyatları qarşılıqlı faydalanma şəraitində əlaqələndirmədən nail olmaq mümkün deyil. Azərbaycan və İran isə sivilizasiyaları birləşdirən başlıca təmas nöqtələrindəndir. İqtisadi əlaqələrin inkişaf etdirilməsi həmin təmas nöqtələrini bir-birinə daha mühüm qaynaq edər.
- Azərbaycan-İran iqtisadi əlaqələrinin dərinləşməsi gələcəkdə hər iki ölkə üçün zərərli olacaq separatizmi xeyli azala bilər. İstər Azərbaycan, istər sadə İran separatizmin nə kimi təhlükə olduğunu fərqindədirlər. Azərbaycan üçün separatizm Ermənistan təcavüzünün başlanmasında bir zəmin oldu. İran isə indinin özündə belə separat qüvvələrlə mübarizə aparmaqdadır.

Azərbaycan-İran iqtisadi əlaqələrinin prespektiv inkişafı hər iki xalqı bir-birinə daha da yaxınlaşdıracaqdır. Azərbaycan-İran iqtisadi əməkdaşlığı digər qonşu dövlətləri də öz ətrafında cəmləməklə iqtisadi əməkdaşlıq üzərində bir təhlükəsizlik zəmanəti ortaya qoyacaqdır.

Azərbaycan-İran iqtisadi əlaqələri inkişaf etməklə gələcəkdə müxtəlif sahələr üzrə daha dərindən öyrəniləcəkdir. Bu isə Azərbaycanda İranşünaslıq, İranda isə Azərbaycanşünaslıq üçün bir töhvədir.

**Tədqiqat işi ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**


1. Beynəlxalq iqtisadi münasibətlərin zəruriliyi, xüsusiyyətləri və nəzəri əsasları. (A.M.Məhərrəmovla birgə). “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı №1, Bakı, 2007, s.452-460;
2. Azərbaycan iqtisadiyyatının inkişaf xüsusiyyətləri, sahə quruluşu və xarici iqtisadi əlaqələri.“Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı №1-2, Bakı, 2008, s.349-356;

3. İran qurumlarının göstəricilərində və təkliflərində İİR-Azərbaycan iqtisadi münasibətləri. “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı №3, Bakı, 2008, s.330-337;

4. Azərbaycan İran iqtisadi əməkdaşlıhının əsas istiqamətləri. “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı №4, Bakı, 2008, s.277-283;

5. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında iqtisadi və beynəlxalq əlaqələrin araşdırılması.(A.M.Məhərrəmovla birgə). “Əndişe-yi-daneşcu” dərgisi №3, 2009, s. 42-51; Tehran

6. Динамика истории азербайджано-иранских экономических связей (в соавторстве с А.М.Магеррамовым). «Проблемы экономики» №2, 2010, s.127-132 , Москва

7. Beynəlxalq iqtisadi münasibətlərdə geoiqtisadi amillərin əhəmiyyəti. AMEA Məruzələr cild LXVIII №3, 2012, s..137-145

8. Azərbaycan və İran İslam Respublikası arasında iqtisadi əməkdaşlıq səviyyəsinin yüksəldilməsi məsələləri. “Kooperasiya”, №2, 2018, s.89-95

9. Приоритетные направления экономического сотрудничества между Ираном и Азербайджаном. «Стратегии инновационного развития экономики страны: проблемы, перспективы, эффективность», Международная научно-практическая конференция для аспирантов и молодых ученых (24 февраля 2018 года), г.Киев (Украина).: Издательство «Новая экономика», 2018, стр.70-74

10.Azəbaycan və İran İslam Respublikası arasında beynəlxalq iqtisadi əməkdaşlığın əsas istiqamətləri. “Maliyyə və uçot”, №2, 2018, s.55-63





**ИБРАГИМПУР АСАДУЛЛАХ РАМЕЗАН**

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ И ФОРМИРОВАНИЯ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ИСЛАМСКОЙ РЕСПУБЛИКОЙ ИРАН

### РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, заключения и предложений, а также из списка литературы.

В введении говорится об актуальности темы и о ряде других аспектов.

Первая глава называется "Научно-теоретические основы участия Азербайджана и Ирана в системе международных экономических". В нее входят такие вопросы как важность международных экономических отношений, свойства и теоретические основы, геоэкономические факторы, значение международных экономических отношений, развитие экономики Азербайджана, ее структура промышленности и внешнеэкономических связей, развития Исламской Республики Иран, ее внешнеэкономических связей и такие вопросы

Глава вторая "Характерные черты и тенденции в области экономических отношений Азербайджанской Республики с Исламской Республикой Иран". Вопросы сгруппированные здесь- текущее состояние экономических отношений между Азербайджаном и Ираном, структура и динамика основных направлениях сотрудничества между Азербайджаном и Ираном, инвестиционное сотрудничество между двумя странами, экономические показатели и соответствующие предложения.

Третья глава посвящена перспективам развития экономических отношений между Исламской Республикой Иран и Азербайджаном и путям их совершенствования. Здесь также охвачены важные темы.

В заключении делаются общие выводы и даются предложения Список используемой литературы завершает диссертацию.

**IBRAHIMPUR ASADULLAH RAMEZAN**

# PROSPECTS FOR THE DEVELOPMENT AND FORMATION OF ECONOMIC RELATIONS BETWEEN AZERBAIJAN AND ISLAMIC REPUBLIC OF IRAN

## ABSTRACT

Thesis on "Economic relations between Azerbaijan and Iran and their development prospects," consists of an introduction, three chapters, conclusions and suggestions, as well as a bibliography. The introduction states the relevance of the topic and a number of other aspects.

The first chapter is called "International economic relations and the development of the Islamic Republic of Iran." It includes such issues as the importance of international economic relations, properties, and theoretical foundations, geo-economic factors, the importance of international economic relations, the development of Azerbaijan's economy, its industrial structure and international relations, development of the Islamic Republic of Iran, its foreign economic relations and issues such

Chapter Two, "Characteristics and trends in the economic relations of Azerbaijan with the Islamic Republic of Iran." Questions grouped here, the current state of economic relations between Azerbaijan and Iran, the structure and dynamics of the main directions of cooperation between Azerbaijan and Iran and investment cooperation between the two countries, economic indicators and related proposals.

The third chapter is devoted to the prospects of economic relations between Iran and Azerbaijan and ways to improve them. It also covers important topics.

In the conclusion to draw general conclusions and provides suggestions bibliography provides information on the scientific basis.

Formatı 60x84 $_{1/16.}$ Həcmi 1 ç.v.
Sifariş 036. Ofset kağızı №1. Sayı 100.

“AA - Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilnişdir.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИСТЕТ**

***На правах рукописи***

**ИБРАГИМПУР АСАДУЛЛАХ РАМЕЗАН**

# «ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ И ФОРМИРОВАНИЯ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ИСЛАМСКОЙ РЕСПУБЛИКОЙ ИРАН»

Специальности: 5310.01- “Мировая экономика”

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по экономике

**БАКУ – 2018**

30,3;28,5;26,7;24,9;22,11;20,13;18,15